# Qarabağ zəfəri Azərbaycanın beynəlxalq inteqrasiya siyasətinin prinsiplərini və dəyərini xeyli artırdı...

Azərbaycan Respublikasının
Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişaf etdirilməsi**

**30 il əvvəl öz dövlət müstəqilliyini bərpa edən Azərbaycan Respublikası bu dövr ərzində dünyanın və regionun önəmli dövlətlərindən biri kimi özünü təsdiqləyib. Dövlət müstəqilliyimizin ilk illərindən başlayaraq Azərbaycan dünya ölkələri, beynəlxalq təşkilatlatlarla, başlıcası isə region dövlətləri ilə daha yaxından sıx əməkdaşlıq etməyə başlayıb.**



Məlum olduğu kimi, Azərbaycan regional və qlobal səviyyədə fəaliyyəti, o cümlədən beynəlxalq arenada əməkdaşlığı genişləndirərək və dərinləşdirərək müstəqil dövlət kimi bir sıra beynəlxalq təşkilatlara, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyi və çoxlu sayda digər təşkilatlara üzv olmuşdur. Azərbaycan Respublikası, həmçinin, GUAM regional qrupunun təsisçilərindən biridir.

Rəsmi məlumatlara görə, Azərbaycanın ən sıx əməkdaşlıq etdiyi beynəlxalq təşkilatlardan biri BMT-dir. Ekspertlərə görə, Azərbaycanın xarici siyasətində onun 1992-ci ildən üzv olduğu BMT-yə müstəsna əhəmiyyətli universal beynəlxalq təşkilat kimi yanaşılır. Yuxarıda adı çəkilən BMT TŞ-nın Ermənistan-Azərbaycan münaqişəsinə dair qətnamələrilə yanaşı, BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığının xəttilə Azərbaycan qaçqınları və məcburi köçkünlərinin ağır şəraitinin qismən yaxşılaşdırılmasına yönəldilmiş yardımını da qeyd etmək lazımdır. Azərbaycan-BMT münasibətləri çərçivəsində ölkəyə müxtəlif layihələrlə bağlı yardım göstərən BMT-nin İnkişaf Proqramının oynadığı mühüm rolu da misal gətirmək olar. Bundan əlavə, UNESCO, UNİCEF və BMT-nin digər xüsusiləşdirilmiş təşkilatlarının fəaliyyəti də məlumdur.

### Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığı...

Gördüyümüz kimi, Azərbaycan üzv olduğu bütün beynəlxalq təşkilatlarla aktiv əməkdaşlıq edir, üzərinə götürdüyü öhdəlikləri yerinə yetirir, bütün sahələrdə humanitar dəstəyini əsirgəmir. Dünya dövlətləri ilə də geniş siyasi, diplomatik, iqtisadi-mədəni əlaqələrə malik olan Azərbaycan öz dostluq və əməldaşlıq münasibətini davam etdirir. Müstəqil siyasət yürüdən Azərbaycan bütün ölkələrlə qarşılıqlı əməkdaşlıqda çox maraqlıdır.

Beynəlxalq aləmdə günü-gündən nüfuzu artan dövlətimiz 30 il Ermənistanın təcavüzündən əziyyət çəkib. Üzv olduğu beynəlxalq təşkilatların da demək olar, böyük əksəriyyəti Azərbaycanın öz ərazilərini işaldan azad etməsinə nəinki dəstək verməyib, hətta Ermənistanın arxasında dayanıb ki, Azərbaycanın torpaqlarını qaytarmasın. Azərbaycan öz vəzifəsini, öhtəliklərini tam olaraq yerinə yetirir, amma qarşılıqlı olaraq beynəlxalq təşkilatlar da öz öhtəlik və vəzifələrini unutmamalıdır. Onlar 44 günlük müharibədə Azərbaycanın qazandığı şəksiz qələbəni birmənalı olaraq qəbul etməli və Ermənistana təzyiqlərini davam etdirməlidir ki Azərbaycanin tələblərini yerinə yetirsin, mina xəritələrini versin, bütün sahələrdə Azərbaycana vurduğu zərəri ödəsin. Bu beynəlxalq təşkilatlar Qarabağ probleminin həllində heç bir iş görə bilmədilər, nəticədə Azərbaycan öz gücünə torpaqlarını işğaldan azad etdi. O zaman heç bir iş görməyən beynəlxalq təşkilatlar heç olmasa indi bir iş görsünlər, Ermənistana təzyiq göstərsinlər.

### "Biz beynəlxalq təşkilatların, sanki öz vəzifə və öhdəliklərini unutduqlarını görürük..."

Müasir İnkişaf Birliyinin sədri, siyasi şərhçi Mübariz Göyüşlü "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan dünya birliyinə inteqrasiya etməklə və beynəlxalq təşkilatlarla əməkdaşlıq etməklə həm bölgədə, həm də dünyada böyük uğurlara imza atıb.

M.Göyüşlünün sözlərinə görə, Azərbaycan Respublikası istər beynəlxalq təşkilatlar qarşısında, istər götürdüyü öhtəliklərə, qonşu və dünya dövlətləri ilə dostluq, əməkdaşlıq əlaqələrinə hər zaman sadiq qalıb. "Azərbaycan həm beynəlxalq təşkilatlarla, həm bizə sərhəd qonşusu olan və olmayan dövlətlərlə hər zaman etibarlı tərəfdaş rolunu oynayıb. Yəni öz üzərinə düşən öhtəlikləri beynəlxalq hüquq, qanun çərçivəsində yerinə yetiribdi. Azərbaycan istər üzvlük haqlarını ödəmək, istər beynəlxalq təşkilatların formatına uyğun olaraq təşəbbüslərlə çıxış etmək, qurumların fəaliyyətinin genişləndirilməsinə maliyə, kadr və sair baxımlardan dəstək vermək olsun, digər bu kimi istiqamətdə olan fəaliyyətlərdə daim aktiv iştirak edib. Məsələn, nümunə olaraq Qoşulmama Hərəkatı örnəyini göstərmək olar. Azərbaycan çox yüksək səviyyədə bu təşkilatda sədrliyini yerinə yetirir və öz üzərinə düşən vəzifəni mükəmməl şəkildə yerinə yetirir. Fikir verirsinizsə, orada pandemiya bağlı toplantının keçirilməsi, BMT çərçivəsində müəyyən fəallıqlar göstərilməsi və sair istiqamətlərdə Azərbaycan öz çalışmalarını həyata keçirir. Amma biz beynəlxalq təşkilatların sanki öz vəzifə və öhtəliklərini unutduqlarını görürük. Təbii ki, Azərbaycana münasibətdə".

### "...Aparıcı beynəlxalq təşkilatların bu münasibəti..."

M.Göyüşlünün sözlərinə görə, istər Avropa Şurası, istər ATƏT, istər Avropa Birliyi, istər BMT olsun, qətnamə, qərar qəbul edirlər, amma onun icra mexanizmi ilə bağlı heç bir addım atılmır. M.Göyüşlünün bildirdiyinə görə, dünya bunun ən acı nümunəsini Ermənistanın Azərbaycan ərazilərini işğal etməsinə və 30 ilə yaxın bir müddətdə tapdaq altında saxlamasına həmin beynəlxalq qurumların sərgilədiyi münasibətdə görüb. Siyasi şərhçi qeyd edir ki, digər acı nümunə isə İkinci Qarabağ Müharibəsində Ermənistanın terrorçu silahlı dəstələrinin Azərbaycanın mülkü əhalisini qadağan olunmuş silahlardan atəşə tutmasına, uşaqlar da daxil olmaqla dinc əhalini qətlə yetirməsinə, şəhərlərimizə, kəndlərimizə raketlər atıb dağıntılar törətməsinə, insanlıq əleyhinə müharibə cinayətləri törətməsinə də dünyanın əksər beynəlxalq təşkilatlarının laqeyd yanaşması oldu. "Bundan sonra da onların hanısa bir formadasa Azərbaycanın haqq işinə dəstək verəcəklərini elə də gözləməyə dəyməz. Hesab edirəm ki, aparıcı beynəlxalq təşkilatların bu münasibəti xristian həmrəyliyindən, türk, islam dünyasına ikili standatlardan irəli gəlir. Onların bölgədə bir türk, müsəlman dövlətinin formalaşması, güclü inkişafı onların maraqlarına cavab vermir, ona görə belə mövqe tuturlar. Bu baxımdan, düşünürəm ki, bu təşkilatlara əhəmiyyət vermədən yolumuzu davam etdirməliyik, təbii ki, öz sözümüzü də deməliyik, mövqeyimizi bildirməliyik, çıxışlarımızı edib, tələblərimizi irəli sürməliyik, haqqımıza qovuşmalıyıq. Eyni zamanda bizi dəstəkləyən türk Türk Şurası, İslam Əməkdaşlıq Təşkilatı, İSESCO kimi təşkilatlarla, Türkiyə, Pakistan, Orta Asiya kimi dost, qardaş ölkələrlə bir yerdə öz çalışmalarımızı, əməkdaşlıqlarımızı davam etdirməliyik, inkişafımızı daha da yüksəltməliyik. Heç şübhəsiz, Azərbaycanın Qarabağ zəfərini qazanması və Ermənistana ağır zərbə vurması dövlətimizin beynəlxalq aləmdə nüfuzunu daha da yüksəltdi. Bu gün Azərbaycan o gücdədir ki, bütün beynəlxalq qurumlar ədalətsizliyi buraxıb Azərbaycanın yanında olmalıdır. Güclünün, həm də yanında olmaq o beynəlxalq təşkilatların nüfuzunu artırar. Onsuz da 44 günlük müharibədə bütün dünya Azərbaycanı gücünü gördü, bu güclə hesablaşmaqdan başqa yol yoxdur "-deyə M.Göyüşlü vurğuladı.

***İradə SARIYEVA***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyilə çap olunur.**